

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 36 (21.697)

*21 fevral 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Qətər Dövlətinin təhsil və ali təhsil naziri Məhəmməd bin Əbdülvahid Əl-Həmmadini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Qətər arasında çox yaxın tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu bildirdi, bu əlaqələrin mümkün qədər çox sahələri əhatə etməsinin vacibliyini qeyd etdi. Prezident İlham Əliyev bu yaxınlarda Qətər Dövlətinin xarici işlər nazirini qəbul etməsinin, özünün Qətərə planlaşdırılmış səfərinin və Qətər Dövlətinin təhsil və ali təhsil nazirinin Bakıya gəlməsinin əhəmiyyətini qeyd edərək qarşılıqlı səfərlərin ölkələrimiz arasında mövcud tərəfdaşlıq əlaqələrinin yaxşı göstəricisi olduğunu vurğuladı.

Qətər Dövlətinin təhsil və ali təhsil naziri Məhəmməd bin Əbdülvahid Əl-Həmmadi Prezident İlham Əliyevin Qətərə səfərini səbirsizliklə gözlədiklərini bildirdi. Ölkələrimizin müvafiq qurumları arasında artıq görüşlər təşkil olunduğunu və səmərəli müzakirələr aparıldığını qeyd edən qonaq Azərbaycan Respublikası ilə Qətər Dövləti arasında təhsil sahəsində möhkəm əməkdaşlıq əlaqələrinin qurulacağına ümidvar olduğunu bildirdi.

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasının çağırılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyası 2017-ci il fevral ayının 23-də saat $11^{00}$-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2017-ci ildə sosial-iqtisadi inkişaf sahəsində qarşıda duran vəzifələr
2. Naxçıvan Muxtar Respublikasının 2016-cı il dövlət büdcəsinin icrasının təsdiq edilməsi
3. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 20 fevral 2017-ci il*

## M.A.Məmmədovun Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin rəisi təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mehman Abdulla oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin rəisi təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 20 fevral 2017-ci il*

## Beynəlxalq Ana Dili Günü qeyd edilib



***Naxçıvan Dövlət Universitetində 21 fevral – Beynəlxalq Ana Dili Gününə həsr olunmuş tədbir keçirilib.***

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ana dilinin hər bir xalqın həyatındakı rolundan bəhs edib. Bildirilib ki, dil millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən mühüm və ən güclü vasitədir. Hər bir insan öz ana dilini yaxşı bilməli və onu qorumalıdır.

Vurğulanıb ki, dilimiz dünyanın ən musiqili dili adlandırılır. Bu isə təsadüfi deyil. Çünki bu dildə sait səslərin çoxluğu onun ahəngdarlığını daha da artırır. Azərbaycan dili həm də lüğət tərkibinə və sintaktik quruluşuna görə zəngin bir dildir. Ümumiyyətlə, Azərbaycan dili statuslu, minillik yaddaş tariximizin bütün incəliklərini ifadə etmək iqtidarında olan, həyatın bütün sahələrinin modullarını özündə əks etdirən, bütün təqiblərə, təzyiqlərə müqavimətli, dünya dilləri sırasında bərabərhüquqlu mövqeyə malik zəngin yazılı və şifahi ədəbiyyatı olan dildir.

Universitetin Azərbaycan dilçiliyi kafedrasının müdiri, dosent Qənirə Əsgərova "Azərbaycan dilinin təsir dairəsi" adlı məruzəsində qeyd edib ki, müxtəlif tarixi proseslər nəticəsində xalqların dilləri yaxınlaşıb, sözlər bir dildən başqa dilə keçib.

Qənirə Əsgərova hazırda dünya dillərində işlənən Azərbaycan mənşəli sözləri də tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, filologiya elmləri doktoru Sədaqət Həsənova "Dilimiz milli sərvətimizdir" adlı məruzəsində müasir dövrümüzdə teleradio verilişlərində, qəzet və jurnallarda yol verilən ciddi sintaktik, üslub və yazı səhvlərindən söz açaraq belə halların aradan qaldırılması istiqamətində əməli tədbirlərin görülməsinin zəruriliyini qeyd edib.

Naxçıvan Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasının dosenti Qalibə Hacıyeva da mövzu ilə bağlı fikirlərini bildirib.

Sonra mövzu ətrafında diskussiyalar aparılıb. Məlumat verilib ki, Beynəlxalq Ana Dili Günü YUNESKO-nun 1999-cu ildə keçirilən Baş Konfransının 30-cu sessiyasında təsis edilib və 2000-ci il fevralın 21-dən dil və mədəniyyət rəngarəngliyini qoruyub saxlamaq məqsədilə qeyd edilir. "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi isə Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım olub.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında gənc əsgərlərin andiçmə mərasimi olub.***

## Mülki Müdafiə Alayında andiçmə mərasimi olub



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında üçrəngli bayrağımız sıra meydanına gətirilib.

Sonra gənc əsgərlər vətəni layiqincə qoruyacaqlarına, əsgəri borclarını şərəflə yerinə yetirəcəklərinə and içiblər.

Mülki Müdafiə Alayının komandiri vəzifəsini icra edən, polkovnik Baba Babayev hərbi andın əhəmiyyəti barədə məlumat verib, gənc əsgərləri əlamətdar gün münasibətilə təbrik edib.

Mərasimdə çıxış edən baş leytenant Mətin Amanov, əsgər Elman Bayramlı, gənc əsgər Rəfiq Əliyev, Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədr müavini Sultan İsmayılov, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Naxçıvan şəhər şöbəsinin sədri Zahid Cəfərov, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, valideynlər adından isə İsa Şiraslanlı gənc əsgərləri təbrik ediblər. Çıxış edənlər əminliklərini bildiriblər ki, gənc əsgərlər nümunəvi xidməti, təlim-tərbiyəsi ilə hərbi hissənin adını yüksək tutacaq, əsgəri borcu şərəflə yerinə yetirəcək, baş verə biləcək fövqəladə hallar zamanı zərərçəkmiş insanların xilas edilməsi üçün əllərindən gələni əsirgəməyəcəklər.

Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün etibarlı şəkildə qorunmasında silahlı qüvvələrimizin rolundan danışıb, gənc əsgərlərə xoş arzularını çatdırıb.

Gənc əsgərlər vətənimizə, xalqımıza layiqli əsgər olacaqlarına, hərbi anda həmişə sadiq qalacaqlarına, verilən tapşırıqları vaxtında və layiqincə yerinə yetirəcəklərinə söz veriblər.

Sonda alayın şəxsi heyəti hərbi marşın müşayiəti ilə tribuna önündən keçib.

## Babək rayonu ərazisində yeni mis və molibden yataqları aşkarlanıb

***Babək rayonundakı Toydaş sahəsində mis və molibden yataqları aşkarlanıb. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən qəzetimizə daxil olan məlumatda belə deyilir.***

Məlumatda o da bildirilir ki, yeni yataqların aşkar olunması son illərdə muxtar respublikada geoloji-kəşfiyyat işlərinin həcminin genişləndirilməsi sayəsində mümkün olub.

Qeyd edək ki, "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində bölgələrimizdə filiz yataqlarının axtarışı ilə əlaqədar işlər aparılır. Culfa rayonu ərazisindəki Qaraqala su sahəsində 2016-cı ildə axtarış qiymətləndirmə işləri başa çatdırılıb, qum, çınqıl və gil xammalının ilkin geoloji hesabatı tərtib olunub. Əlincəçay hövzəsində də haliyədə tikinti materiallarının axtarışı davam etdirilir.

Naxçıvanın mineral xammal bazasını 200-dən çox filiz və qeyri-filiz yataqları təşkil edir. Son illərdə muxtar respublika ərazisində müxtəlif tip filiz və qeyri-filiz yataqları öyrənilib və aşkar edilib. Mineral xammal ehtiyatlarının ümumi balansında filiz, qeyri-filiz faydalı qazıntıları kimi tikinti materialları mühüm yer tutur.

Məlumat üçün bildirək ki, ərazidə ilk geoloji tədqiqatlara və mineral sərvətlərin öyrənilməsinə XVIII əsrin ikinci yarısından başlanılıb, planauyğun şəkildə müntəzəm öyrənilməsi isə muxtar respublikanın yaranmasından sonrakı dövrə təsadüf edir. Naxçıvan Muxtar Respublikasının təbiəti füsunkar və cazibədar gözəlliyi, əsrarəngiz dağ landşaftları və Araz çökəkliyi ilə səciyyələnir, çoxsaylı müxtəlif faydalı qazıntı yataqları ilə zəngindir. Muxtar respublikanın ərazisində çoxsaylı mis, molibden, kobalt, volfram, manqan, alüminium, maqnezium, qurğuşun, sink, sürmə, mərgümüş və digər metal faydalı qazıntı yataqları mövcuddur.

Metal faydalı qazıntıların müəyyən edilmiş və proqnozlaşdırılan ehtiyatları mühüm əhəmiyyət kəsb edir. Uzun illər ərzində Gümüşlü və Parağaçay yataqlarından qurğuşun, sink və molibden filizləri çıxarılıb.

**Xəbərlər şöbəsi**

# Ordubad:

## gözəlliyi artıran, fərəh yaradan quruculuq işləri



***Muxtar respublikanın cənub-şərqində, Araz çayının sol sahilində yerləşən Ordubad ilin hər fəslində heyranlıq doğurur. Elə bu soyuq qış günlərində də gözəlliklər diyarının bəyaz mənzərələri könülləri isti duyğulara kökləyir. Muxtar respublikanın bütün bölgələri kimi, Ordubadın da bir özəlliyi odur ki, burada ötən hər il həyatın müxtəlif sahələrində qazanılan uğurlarla əlamətdar olur. Yola saldığımız 2016-cı il də bu baxımdan istisna deyil. Ordubada getməkdə məqsədimiz də burada ötən il görülən işlərlə yaxından tanış olmaq idi.***

Budur, çoxsaylı dini-tarixi abidələrlə zəngin olan, bu gün 49 min nəfərdən çox əhalinin yaşadığı qədim bölgədəyik. Rayon qəzetinin redaktoru Abbas Seyidlə şəhəri gəzirik. Bir daha görürük ki, Ordubad bənzəri olmayan amfiteatrdır. Sanki mahir bir memarın təxəyyülünün yaratdığı layihə ilə qurulub. Dəniz səviyyəsindən 850 metr yüksəklikdə yerləşən, yaşı qədim tarixə söykənən, tikililəri, çinarları yüzilliklərə şahidlik edən bir şəhər və bu şəhərin ətrafına səpələnmiş abad, axarlı-baxarlı kəndləri olan Ordubad haqqında eşitdiklərim insana qürur bəxş edir. Başını sıldırım dağlara söykəyən Ordubadın hər tərəfində çeşmələr çağlayır. İnsanları qonaqpərvər, mehribandırlar, bu gün yaxşı yaşayırlar. Bunu küçələrlə addımladıqca insanların təbəssüm dolu baxışları, yanımızdan keçən kiçiklərin hörmətlə salam vermələri də təsdiq edirdi.

Ulu öndərimiz Heydər Əliyevin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, son illər Ordubad rayonunda da geniş quruculuq işləri aparılıb. Bu gün rayon mərkəzində ən müasir tibbi avadanlıqlarla təchiz edilmiş xəstəxana vardır. Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ordubad Rayon Şöbəsi, uşaq bağçası, Qaz İstismarı İdarəsi, Vergilər Şöbəsi, Mədəniyyət Evi, Elektrik Şəbəkəsi, Əhalinin Sosial Müdafiəsi Mərkəzi, Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi, 7 saylı Dairə Seçki Komissiyası, Ordubad şəhər 3 nömrəli tam orta məktəb, uşaq musiqi məktəbi üçün inşa olunan binalar göz oxşayır. Nəqliyyat infrastrukturunun yeniləşdirilməsi istiqamətində konkret addımlar atılıb, şəhərdə müasir tələblərə cavab verən avtovağzal kompleksi, aviakassa əhalinin istifadəsinə verilib. Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının, Polis Şöbəsinin, prokurorluğun, məhkəmənin, Kompüter Təlim-Tədris Mərkəzinin, Akademik Yusif Məmmədəliyevin, Məmməd Səid Ordubadinin, Məhəmməd Tağı Sidqinin ev-muzeylərinin, şahmat, sürücülük və internat məktəblərinin yeni inşa edilmiş və ya yenidən qurulmuş binaları da son illərin quruculuq ərmağanlarındandır. Şəhər ərazisindəki bərpaya ehtiyacı olan tarixi abidələr də unudulmayıb. Belə ki, Ordubad şəhərində indi Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyət göstərdiyi Qeysəriyyə binası, qədim məbəd, iki yeraltı abidə, bir neçə tarixi kəhriz və digər abidələr qədimliyi saxlanılmaqla bərpa edilib, əvvəlki görkəminə qaytarılıb. Rayonun kəndləri də quruculuq tədbirlərindən kənarda qalmayıb. Ordubad şəhərindən kəndlərə gedən yollar müasir şəkildə yenidən qurulub, yaşayış məntəqələrində kənd və xidmət mərkəzləri tikilib, bu mərkəzlərdə dövlət qurumları və xidmət sahələri üçün hərtərəfli şərait yaradılıb. İndi kəndlərdə insanların sağlamlığına xidmət edən, müasir tələblərə cavab verən həkim ambulatoriyaları, feldşer-mama məntəqələri fəaliyyət göstərir.

Ordubad şəhər sakini Abbas Tağıyev deyir ki, uzun illər boyu bu gözəl məkanda yaşayanlar çox çətinliklər çəkib, gediş-gəliş üçün rahat yollarımız belə, olmayıb. Amma bu gün həmin problemlər daha yoxdur. Baxın, hətta bu gün su sistemi belə, yenilənir, dünya standartlarına uyğun qurulur.



Ötən ilin quruculuq xəritəsindən söz düşəndə öyrəndik ki, Ordubad şəhərində Texniki Peşə və Sürücülük Məktəb Kompleksi, 36 mənzilli yaşayış binası, “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Ordubad rayon filialı istifadəyə verilib. Bu gün ordubadlılar inanırlar ki, quruculuq işlərinin əhatə dairəsi daha geniş olacaq. Bunu az qala hər gün muxtar respublikanın ayrı-ayrı bölgələrində həyata vəsiqə alan yeni ünvanlar, infrastruktur layihələri də təsdiq edir. Elə Ordubad rayonunda da hazırda quruculuq işləri davam etdirilir. Bu gün Dəmiryol Vağzalı üçün yeni binanın və “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin Ordubad Yol Sahəsinin inzibati binasının, Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir.

Bəli, su elektrik stansiyasından söz düşmüşkən qeyd edək ki, rayonun həyatında tarixi hadisələr, unudulmayan anlar çox yaşanıb. Azərbaycan Prezidenti cənab İlham Əliyev Ordubadda neçə-neçə obyektin açılış mərasimlərində iştirak edib. Belə əlamətdar hadisələrdən biri də cari il yanvar ayının 11-də yaşanıb. Həmin gün ölkə başçısı Naxçıvanın enerji təchizatında xüsusi əhəmiyyət kəsb edəcək Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib.

Ölkə başçısının muxtar respublika haqqında xoş fikirləri, həmçinin ***“Naxçıvan-Culfa, Naxçıvan-Şahbuz, Naxçıvan-Sədərək yolları ən yüksək standartlara cavab verir. Bir yol layihəsi hələ ki, öz həllini gözləyir. Bu da Culfa-Ordubad layihəsidir”***, – deməsi ordubadlıların qurub-yaratmaq əzmini daha da yüksəldib.

...Şəhərin mərkəzində, yol kənarındakı parkın yaxınlığında dayanıb rayona gələn qonaqları Ordubadın milli yeməkləri ilə tanış etmək imkanı qazandıran, ala-tala qar altından belə heyranlıq doğuran “Dübəndi” ailəvi restoranının ətrafında yaradılan gözəl mənzərəni, axan şəlaləni, üzüyuxarı su boyunca çay daşları ilə yaradılan səliqə-sahmanı seyr edirik. Bu vaxt restorandan çıxan bir nəfər yaxınlaşıb hal-əhval tutur. Biləndə ki, “Şərq qapısı” qəzetindən gəlmişik, – deyir:

– Bir bizim kəndə də gəlin. Baxın görün, nə cah-calal yaradılıb. Gözəl, yaraşıqlı məktəb binamız var. Müasir kənd mərkəzi, xidmət mərkəzinin tikilməsi, yollarımızın abadlaşdırılması, körpünün təmir edilməsi hər bir kənd adamını sevindirir.



Öyrəndik ki, o, Baş Dizə kəndinin sakini Coşqun Fərzəliyevdir. Ötən il aparılan tikinti-quruculuq tədbirləri rayonun bu kəndinə də yeni sosial obyektlər bəxş edib və hər bir sakin də bundan sevinc hissi keçirir.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafına xidmət edən dövlət proqramlarının Ordubad rayonunda uğurla icra edilməsinin nəticəsidir ki, məhsuldarlıq artır, əkinçilik sahələri genişləndirilir. Aqrar bölmənin maddi-texniki bazasının gücləndirilməsi, eləcə də texnika, gübrə və bitki mühafizəsi vasitələri ilə təminatın ən yüksək səviyyəyə çatdırılması bol məhsul əldə edilməsinə zəmin yaradıb. Son illərdə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə rayona 99 ədəd, cari ildə isə 11 ədəd texnika alınıb gətirilib. 2016-cı ildə 2233 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 6211 ton məhsul, o cümlədən 1310 hektar sahədən 3603 ton buğda, 639 hektar sahədən 1687 ton arpa, 284 hektar sahədən 921 ton dənli-paxlalılar, 575 hektar sahədən 8453 ton kartof, 673 hektar sahədən 5518 ton tərəvəz, 41 hektar sahədən 285 ton bostan məhsulu götürülüb. Ötən il bağlardan 4752 ton meyvə tədarük edilib. Eyni zamanda rayonda yeni üzüm bağları salınıb. Süfrələrimizin bəzəyi, insanların sağlamlığı üçün zəngin mineral tərkibə malik olan kişmiş və mövüc istehsalı da ilbəil artır. Hazırda rayonda daxili və xarici bazara keyfiyyətli məhsul çıxarılması, yeni texnologiyaların tətbiqi, üzümçülük üzrə iri təsərrüfatların yaradılması istiqamətində məqsədyönlü iş aparılır, üzümçülüyün sənaye miqyasında genişləndirilməsi imkanları araşdırılır. Ötən il təsərrüfatçılar üzüm bağlarından 288 ton məhsul yığıblar. Rayonda hər birinin tutumu 100 ton olan 2 soyuducu anbarın fəaliyyət göstərməsi də zəhmət adamlarının kənd təsərrüfatının inkişafına marağını artırıb.

Yuxarı Əylis kənd sakini, kənd tam orta məktəbinin müəllimi Yusif Qədirquliyevin bizimlə bölüşdüyü təəssüratlar da xoş hisslər yaradır. Deyir ki, Ordubad qədim meyvəçilik ənənələrini inkişaf etdirir. Bunun üçün su vacib şərtdir. Ötən il “Əylis düzü” deyilən 30 hektarlıq ərazidə salınmış meyvə bağının suvarılması üçün damcı üsulunun tətbiq olunması müsbət nəticələrini verib. Nüsnüs kəndindən Aşağı Əylis kəndinə qədər olan 3 kilometr uzunluğunda kanalın çəkilməsi 250 hektar torpaq sahəsinin əkin dövriyyəsinə qatılmasına şərait yaradıb.



Son illər rayonda iməciliklər yolu ilə yerli iqlim və relyefə uyğun meyvə sortlarından ibarət hektarlarla meyvə bağları salınıb. Bunun 27,2 hektarı ötən ilin payına düşüb. Həmçinin 7 hektar sahədə bərpa işləri aparılıb. Eləcə də Dəstə kəndi ərazisində 0,4 hektar sahədə aqrotexniki qaydalar əsasında meyvə çəyirdəyi əkilib.

Bölgədə ekoloji tarazlığın qorunması istiqamətində həyata keçirilən yaşıllaşdırma tədbirləri çərçivəsində Ordubad rayonunda 46 min 733 ədəd ting əkilib. Bunlar arasında meyvə və meşə, həmişəyaşıl ağaclarla yanaşı, 24 min 540 ədəd qızılgül kolu da olub. Bunu dəyərləndirən şəhər sakini, “FH oğulları” mürəbbə və cem istehsal sahəsinin sahibkarı Hüseyn Fərzəliyev bildirir ki, 2008-ci ildən yaradılan müəssisədə 16 növdə mürəbbə hazırlanır. Ətirli qızılgüldən bişirilən mürəbbə də bu çeşidlərin sırasındadır.

Ötən il salınan qızılgül plantasiyası müəssisənin istehsalında xammal mənbəyidir.

Qeyd edək ki, torpaqda çəkilən zəhmətin itməməsi üçün vacib amillərin önündə suvarma suyu dayanır. Elə meliorasiya və irriqasiya vəziyyətinin yaxşılaşdırılması məqsədilə ötən il də mövcud nasos stansiyalarında təmir işləri aparılıb, kanallar və arxlar lildən təmizlənib. İçməli su xətlərinin təmir olunması, 2,4 kilometr məsafədə yeni içməli su xəttinin çəkilməsi, 1,2 kilometrlik kaptajın təmiri, 350 metr uzunluğunda yeni kaptajın istifadəyə verilməsi isə ordubadlıların bu sahədə problemlərinin həllinə göstərilən qayğıdır.

Rayonda aparılan çoxşaxəli quruculuq tədbirlərindən təhsil sahəsinə də pay düşüb. Ordubad şəhər 3 nömrəli tam orta məktəbin müəllimi Səkinə Tağıyeva deyir ki, təhsil quruculuğu sahəsində görülən işlər kəndlərimizə möhtəşəm məktəb binaları bəxş edib. Bu gün Sabirkənd, Ələhi, Xurs, Nürgüt, Aşağı Əylis, Yuxarı Əylis və ümumiyyətlə, bir çox yaşayış məntəqələrinin təhsil ocaqları dediklərimizə nümunədir. Məktəblər müasir avadanlıqlarla, kompüter dəstləri ilə təmin olunub. Bütün bunlar fənlərin tədrisində keyfiyyət dəyişikliyi yaradıb. Odur ki, hər il qəbul imtahanları zamanı yüksək bal toplayanların sayı artır. Bunu 2015-2016-cı tədris ilində ümumtəhsil məktəblərini bitirən 328 şagirddən 251 nəfərin müxtəlif ixtisas qrupları üzrə ali məktəblərə sənəd verməsi, onlardan 167 nəfərinin tələbə adı qazanması, o cümlədən 1 qızıl, 2 gümüş medala layiq görülən məzunların yüksək balla ali məktəblərə daxil olmaları da təsdiq edir. Ali məktəbə qəbul olunan məzunlardan 45 nəfərinin 500 baldan yuxarı nəticə göstərməsi, o cümlədən 13 nəfərin 600-dən yuxarı bal toplaması müəllimləri gələcəkdə daha böyük uğurlar qazanmağa həvəsləndirir.

...Günbəgün müasirləşən qədim Ordubadın coğrafiyasına nəzər salsaq görərik ki, əksər kəndlər dağlıq ərazidə yerləşir və buralarda tikinti aparmaq böyük zəhmət və vəsait tələb edir. Amma buna baxmayaraq, ən ucqar kənddə belə, müasir infrastrukturun yaradılması dövlətimizin hər bir yaşayış məntəqəsinə verdiyi önəmin göstəricisidir.

***Beləcə, Kiçik Qafqaz sıra dağlarının Qapıcıq zirvəsinin ətəklərində yerləşən, 1 şəhər, 3 qəsəbə, 43 kənddən ibarət olan Ordubad rayonunun bir gün qonağı olduq. Əmin olduq ki, rayonda işgüzar abhava mövcuddur. Ordubad öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Tarixi ənənələri qoruyub saxlamaqla bərabər, yenilik, müasirlik axtarışları görülən işlərin əsas mahiyyətini təşkil edir. Qarşıladığımız hər ilin yeni uğurlar, nailiyyətlər gətirəcəyinə rayon sakinlərinin böyük inamı var...***

**Hafizə ƏLİYEVA**

21 fevral Beynəlxalq Ana Dili Günüdür

## Azərbaycan dili ən ali dəyərimizdir




***İnsanlar arasında ünsiyyət vasitəsi olan dil həm də hər bir xalqın milli varlığı, milli kimliyidir. Hər il dünyada fevral ayının 21-nin Beynəlxalq Ana Dili Günü kimi qeyd olunması da dilə böyük ehtiramın ifadəsidir.***

Xalqımızın milli varlığının, Azərbaycançılıq məfkurəsinin əsasını dilimiz təşkil edir. Harada yaşamasından asılı olmayaraq, milyonlarla soydaşımızın mədəni inkişaf və ünsiyyət vasitəsi olan dilimiz tarixən böyük inkişaf yolu keçmiş, zaman-zaman ən müxtəlif təqib və təzyiqlərə məruz qalmış, lakin öz varlığını qoruyub saxlamışdır.

Azərbaycan tarixboyu yadelli işğalçıların təsirinə məruz qalmış, nəticədə, doğma dilimiz də çətin sınaqlarla üzləşmişdir. Lakin milli dəyərlərini heç zaman unutmayan xalqımız dilimizin məhv olmasına, yad dillərin təsirinə düşməsinə yol verməmiş, onu qoruyub saxlamış, saflığını, şirinliyini bu günədək gətirib çıxartmışdır. Ona görə də dil və xalq ayrılmaz məfhumlardır. Xalqın tarixi taleyini onun dili də yaşadır. 1919-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dilimizi dövlət dili kimi təsdiqləyib. 1936-cı ildən sonra isə Azərbaycan dili rəsmən dövlət dili sayılsa da, bu, formal xarakter daşımış və dövlət idarələrində məhdud çərçivədə işlənmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev dilimizin hərtərəfli inkişafı, onun rəsmi dövlət dili statusu alması, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması üçün çox böyük işlər görmüşdür. ***"İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan ana dilini hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir"***, – deyən ümummilli lider hakimiyyətdə olduğu illərdə dil siyasətinə mühüm əhəmiyyət vermişdir. Bunun nəticəsidir ki, 1970-ci ildən Azərbaycan dili elmi şəkildə öyrənilmiş, müasir Azərbaycan dilinin problemləri ilə bağlı çoxsaylı elmi-nəzəri əsərlər yaradılmışdır. Ali məktəblər üçün yazılmış dördcildlik "Müasir Azərbaycan dili" dərsliyi 1974-cü ildə məhz ulu öndərin təşəbbüsü ilə respublikanın dövlət mükafatına layiq görülmüşdü.

Sovet imperiyası dövründə ümummilli liderimiz böyük cəsarət göstərərək Azərbaycan ədəbi dilinin qorunması və inkişafına xüsusi diqqət yetirirdi. Dahi rəhbər ana dilimizin 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi təsbit edilməsinə nail olmuşdur.

Ölkəmiz müstəqillik qazanandan sonra bütün sahələrdə olduğu kimi, dil sahəsində də yeni qanunların qəbul edilməsinə zərurət yarandı. Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ana dilimizin nüfuzunun artırılması istiqamətində ardıcıl və məqsədyönlü iş aparmağa başladı. Ana dilimizin qorunması, inkişaf etdirilməsi, respublikanın bütün idarə və təşkilatlarında dövlət dili kimi tətbiq edilməsi istiqamətində daha qətiyyətli addımlar atıldı. Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyamızda Azərbaycan dili dövlət dili kimi təsbit edilmişdir. Ulu öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyul və "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2003-cü il 2 yanvar tarixli fərmanları dilimizin və dilçiliyimizin inkişafında yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Həmçinin ümummilli liderin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən, hər il avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev dilimizin daha geniş təbliğinə hərtərəfli imkanlar yaratmışdır. Bu gün inkişaf etmiş bir çox dünya dövlətlərində Azərbaycan dilində təlim verən məktəblər açılmış, həmin məktəblər doğma dilimizdə olan dərsliklərlə, metodiki və bədii ədəbiyyatlarla təmin edilmişdir. Artıq dilimiz dünyanın mötəbər kürsülərindən eşidilir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli sərəncamlarına əsasən, latın qrafikalı Azərbaycan əlifbası ilə dərsliklər, elmi əsərlər, lüğətlər və bədii ədəbiyyatlar çap olunaraq ölkə kitabxanalarına paylanılmışdır. Ölkə Prezidentinin 2013-cü il 9 aprel tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı Azərbaycan dilinə göstərilən qayğının ifadəsi olmaqla yanaşı, həm də bu sahədə bir sıra tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Dövlət proqramında Azərbaycan dili və dilçiliyi ilə yanaşı, həm də tərcümə fəaliyyəti, terminologiyanın inkişafı, internet resurslarının, elektron və interaktiv dərsliklərin yaradılması məsələləri öz əksini tapmış, televiziya və radiolarda Azərbaycan dilinin norma və qaydalarının qorunması məqsədilə bədii şuralar yaradılmışdır.

Qürurverici haldır ki, muxtar respublikamızda da dövlət dil siyasəti uğurla həyata keçirilir. İstər danışıq, istərsə də yazı dilindən düzgün istifadə olunması, ana dilimizin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi, təbliğ olunması diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə reallaşdırılan tədbirlər ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Naxçıvan şəhərində ucaldılmış "Ana dili" abidəsi dilimizə ehtiramın ən böyük ifadəsidir.

Min illərdir ki, cilalana-cilalana dövrümüzə qədər gəlib çıxmış milli dəyərlərimizin qorunması, zənginləşdirilməsi, inkişaf etdirilməsi, cəmiyyətdə tutduğu mövqeyindən, peşəsindən, ixtisasından, vəzifəsindən asılı olmayaraq, hər kəsin vətəndaşlıq borcudur. Hər bir Azərbaycan vətəndaşı öz ana dilini qorumalı, onun mənəvi-siyasi nüfuzunu təkcə ölkə daxilində deyil, bütün dünyada yüksəltməyə çalışmalıdır.

**"Şərq qapısı"**

## Prezident təqaüdçüsü Həvayət Qurbanovanın yubileyi qeyd olunub

***Sosialist Əməyi Qəhrəmanı, Prezident təqaüdçüsü Həvayət Qurbanovanın anadan olmasının 80 illik yubileyi münasibətilə Naxçıvan şəhərində, yaşadığı evdə tədbir keçirilib.***



Çay süfrəsi arxasında keçirilən tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova Həvayət Qurbanovanı 80 illik yubileyi münasibətilə təbrik ediblər. Bildirilib ki, yubilyar 1937-ci il fevralın 20-də anadan olub. Yeniyetməlik yaşlarından başlayaraq zəhmətə qatlaşıb, əməksevər bir insan həyatı yaşayıb. Əmək fəaliyyətinə 1955-ci ildən başlayan Həvayət xanım müxtəlif vəzifələrdə, o cümlədən Naxçıvan MSSR Kənd Təsərrüfatı Nazirliyində aqronom, Naxçıvan MSSR Komplekszona Təcrübə Stansiyasında kiçik elmi işçi, "Azərkəndtəsərrüfatıtexnika" Naxçıvan MSSR Birliyində böyük aqronom işləyib. 1965-ci ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olub. Təsadüfi deyil ki, gənc yaşlarında, 29 yaşında dövrün ən yüksək fəxri adına – "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülüb. Bu illərdə ictimai fəaliyyətdən də kənarda qalmayıb. SSRİ Ali Sovetinin 6-cı və 7-ci çağırış deputatı seçilib.

Vurğulanıb ki, Həvayət Qurbanovanın əmək fəaliyyəti və onun zəhmətinə verilən qiymət ulu öndərimiz Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrə təsadüf edir. Bu da səbəbsiz deyil. Çünki ötən əsrin 70-80-ci illərində ümummilli liderimizin zəhmət sahiblərinə, qadınlara böyük dəstəyi və qayğısı var idi. Öz zəhməti ilə uğurlara imza atan Həvayət xanım da bu qayğıdan kənarda qalmayıb. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə müstəqil ölkəmizdə siyasi hakimiyyətə qayıdışından sonra ömür-gününü bu torpağa həsr etmiş insanlarımıza böyük dəyər verildi. Zəhmətkeş ömür yaşayan Həvayət xanım da ahıl çağında yenidən ulu öndərimizin himayə və qayğısını gördü. Ona Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 oktyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verildi. Ulu öndərimizin siyasi kursu bu gün muxtar respublikada uğurla davam etdirilir. On illər öncə diyarımızın inkişafında xidmətləri olan şəxslər unudulmur, onların yubileyləri qeyd edilir. Bugünkü tədbirin keçirilməsi də zəhmətkeş insanlarımıza dövlət qayğısının daha bir ifadəsidir.

Tədbirdə qeyd edilib ki, Həvayət Qurbanova yaşadığı zəhmətkeş insan ömrü ilə həyatın bütün xoşbəxtliklərinə çatıb, həmişə öz işindən zövq alıb, ailə səadətinə qovuşub. O, xalqımıza məxsus dəyərlərə sahib olan ağbirçək kimi yeni nəsillərə əsl Azərbaycan qadını nümunəsidir.

Sonda yubilyara hədiyyələr təqdim olunub.

Həvayət Qurbanovanın qızı Mehriban Orduxanova ailə üzvləri adından yubileyin keçirilməsinə görə minnətdarlığını bildirib.

**Xəbərlər şöbəsi**

Bu gün su çərşənbəsidir

## Su gözəllər yüküdü

***Xalqımızın ən qədim və ən əziz bayramı olan Novruz həm də insanın inkişaf dövrlərini, təbiətin canlanma ardıcıllığını özündə əks etdirir. Xüsusilə Novruzdan əvvəlki boz ay adlandırdığımız son dörd həftənin çərşənbələri bu baxımdan xüsusi mənalar kəsb edir. Artıq biz boz ayın ilk çərşənbəsini yaşayırıq.***

Su çərşənbəsi boz ayın əzəl çərşənbəsidir. Xalq arasında "Əvvəl çərşənbə", "Gözəl çərşənbə", "Su çərşənbəsi", "Sular Novruzu", "Gül çərşənbə" kimi də adları mövcuddur.

Qədim türk inamlarına görə, əzəl çərşənbədə təzə ilin gəlməsi münasibətilə əvvəlcə su oyanır, təzələnir, elə buna görə də bu çərşənbə su ilə, suyun təzələnməsi ilə əlaqələndirilir. Təbii ki, türk xalqlarının mifik düşüncəsində su kultu ən qədim kultlardan sayılır.

Su çərşənbəsi suya tapınma inamı ilə başlanır. İnsanlar gün doğmamışdan su üstünə gedir, təzə suda əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyir, su üstündən atdanır, yaralıların yarasına su səpirdilər. İnama görə, "təzə su", daha doğrusu, əzəl çərşənbənin sübh tezdən köpüklənən ağ suyu dərdlərə dərman olarmış. Ehtimal ki, Xızırın dirilik çeşməsindən, Koroğlunun "Qoşa bulaq"dan su içdiyi gün də elə su çərşənbəsi günü baş vermişdir.



Əski inamlarda su həm də sağlamlığı ifadə edirdi. Su çərşənbəsi günü "təzə su"dan keçənlər, azarını-bezarını ona verənlər ilboyu xəstəliklərdən uzaq olardılar. Həmin gün su üstündə bir sıra ayinlər icra edilərdi. Səsi batanlara, danışa bilməyənlərə o sudan içirərdilər.

Su qırağında, bulaq başında, arx kənarında suyu çağıran, onun qüdrətini, bütövlüyünü, müqəddəsliyini tərənnüm edən nəğmələr oxunurdu.

Su çərşənbəsi ilə bağlı gənc qızlar arasında su falları da geniş yayılmışdır. Həmin fallardan birinə görə, su çərşənbəsində sübh tezdən gedib axar sudan – bulaqdan, çaydan, arxdan "lal su" gətirərlər, yəni suyu evə gətirənəcən heç kimlə danışmırlar. Onu bir neçə piyaləyə töküb saxlayırlar. Axşam qızlar yığışırlar, hərə öz bəxtinə üzüyünü suya atır. Üzük piyalənin divarına toxunub cingildəyir. Üzük neçə dəfə cingildəsə, deməli, qız həmin sayda ildən sonra gəlin köçəcək.

Digər bir fala görə isə iki sevgilinin bir-birinə qovuşacağını bilmək üçün iki iynənin ulduzlu tərəfinə pambıq dolayır və hərəsini piyalənin bir tərəfindən suya salırlar. İynələr piyalədə oynayıb bir-birinə qovuşsa, demək, sevgililər də qovuşacaq, yox, əgər hərəsi bir tərəfə gedib suyun üzündə qalsa, demək, onların bəxti başqası ilə barışacaqdır. İynələr piyalənin dibinə çöksə, onda su "lal su" deyildir.

Su çərşənbəsində Azərbaycanın bir çox bölgəsində mərasimlər keçirilir. Həmin mərasimlərdən birinə görə adamlar əzəl çərşənbədə sübh tezdən bulaq, arx, su dəyirmanı üstə gəlir, "ağırlığım-uğurluğum suya", "azarım-bezarım suya", – deyib su üstündən atdanırlar. Sonra əl-üzlərini yuyur, bir-birinin üstünə su atır, üzlərinə su çiləyirlər. Müxtəlif xəstəliklərə tutulan adamları da su üstündən hoppandırırlar. Erkən tapınmalara görə, insanlar bir anlıq təzə suya qovuşmaqla bütün dərd-sərini, xəstəliklərini unudur, onları elə oradaca "təzə su" üstündə qoyurdular.

İnanca görə, suya etiqad bəsləyənlərin bütün xəstəliklərini, günahlarını yalnız ildə bir dəfə – su çərşənbəsi mərasimində təzə su yuyub aparırdı. Adamlar elə buradaca günah işlətməyəcəklərinə, ancaq və ancaq yaxşılıq edəcəklərinə and içərdilər. Mərasim suyun başına dövrə vuran adamların aşağıdakı nəğməsi ilə başa çatardı:

*Sel çapar, su çapar,*
*Bir günah işlətdim,*
*Gəl onu tut apar.*
*Sel çapar, su çapar,*
*Gəl apar, gəl apar...*

Su kultunun xalqımızın milli varlığındakı önəmini göstərən kifayət qədər folklor nümunələri də mövcuddur. Bayatılarımızın birində də deyildiyi kimi:

*Suya gedən igidi,*
*Saçı məxmər təkidi.*
*Allah, məni su elə,*
*Su gözəllər yüküdü.*

Yaxud açması "su" olan "Yer altında yaza gedir" tapmacası da milli kimliyimizin su koduna işarədir.

Bundan əlavə, atalarımız deyib ki, su axarında salınan el-oba baxarlı olar, su olan yerdə dirilik olar, su istəyənindir, su bulanmayınca durulmaz, su ehsandır, su murdarlıq götürməz. Xalq inamları da atalarımızın sözlərini təsdiqləyir. İnamlara görə, süfrəyə su dağılması aydınlıqdır, su içən adamı qəfil vurmazlar, su içən adamı ilan çalmaz, su dolu qabla qabağına çıxsalar, işin avand olar, yuxuda su görmək aydınlıqdır. Məhz bu inamlara görə də səfərə çıxan adamın arxasınca su atarlar.

Su çərşənbəsində qorxan adamın başından üç dəfə sağdan, üç dəfə soldan su atsalar, qorxusu keçər, ürəyi keçən adamın üzünə su çiləsən, özünə gələr, su çərşənbəsində qorxan adama qorxduğu yerdə su içirərlər kimi su türkəçarələrini də, yəqin ki, əksəriyyətimiz eşitmişik.

Ümumiyyətlə, boz ayın ilk çərşənbəsi – su çərşənbəsində qışdan sonra təbiətin ilk oyanışı təbliğ olunur. Su oyanır, buz tutmuş su yenidən canlı varlıqlara həyat verməyə tələsir.

*Biz də bütün oxucularımıza Dədə Qorqud alqışıyla üzümüzü tutub deyirik ki, "Qamən axan görklü suyun qurumasın".*

**Elxan YURDOĞLU**
***AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri***

# Musiqi terapiyası haqqında nə bilirik?



***Belə bir deyim var ki, musiqi insanları birləşdirir, musiqi sərhəd tanımır. Bəli, bu, doğrudan da, belədir. İnsanların musiqi barədə tək fərqliliyi, sadəcə, janr seçimidir. Yəni elə bir insan tapılmaz ki, musiqini sevərək dinləməsin. Bütün insanlar musiqinin ona ruhən yaxın olan müəyyən bir janrını seçir və həmin janra aid nümunələri dinləməkdən zövq alır. Keçmişə ötəri bir nəzər salaq. Qədim zamanlardan bu günümüzə qədər gəlib çatmış qaynaqlarda qeyd olunur ki, əmək mahnıları insanların yorğunluqlarını yaddan çıxarmaq məqsədilə məhz elə ağır şəraitdə çalışan həmin insanlar tərəfindən yaradılaraq iş prosesində istifadə olunurdu. Bildiyimiz kimi, folklorun bir növü olan xalq mahnılarının hamısı bax belə yaradılıb, xalqın yaradıcılıq məhsulu olaraq dildən-dilə keçərək təkmilləşib, zamanla nota köçürülərək xalqın mədəni mirası kimi əbədiləşdirilib. Bu deyilənlərdən belə qənaətə gəlmək olar ki, musiqi insanın mənəvi tələbatından yaranıb.***

Musiqinin insanlara təsir gücü barədə müxtəlif mənbələrdə, xüsusilə də qədim yunan əfsanələrində kifayət qədər materiallar var. Həmin əfsanələrin birində qeyd olunur ki, məlahətli səsi olan Orfey öz səsi ilə allahları ram edir, beləliklə, qarşısında olan maneələri aradan qaldırırdı.

Musiqinin insan həyatında sahib olduğu mühüm yerlərdən biri də onun sağlamlığımızda müəyyən rol oynamasıdır. Ondan sinir-psixi xəstəliklərin profilaktikası və müalicəsində istifadə olunur.

Hələ Antik dövrlərdə musiqinin köməyi ilə insanların bir sıra ağır xəstəliklərdən şəfa tapması barədə faktlar vardır. Bu faktlarda nəfəslə çalınan alətlərin səsi ilə ruhi xəstələrə öz əvvəlki sağlamlığına qovuşduğu, insanların hirsini və qəzəbini lirada çalıb oxumaqla soyutduğu, həkimlərin zəhərli ilan çalmış adamlara musiqidən zəhərə qarşı vasitə kimi istifadə etməyi məsləhət gördüyü və sair kimi məlumatlar yer alıb.

Hippokrat və Pifaqor öz xəstələrini musiqi ilə müalicə edərək onları sağlamlıqlarına qovuşdurublar. Dövrümüzdə isə elm sübuta yetirib ki, musiqi insanın fiziki və emosional vəziyyətinə müsbət təsir göstərir. Musiqi stresi azaldır, ona ağrıkəsici vasitə kimi təsir göstərir, ürək-damar sistemi xəstəliklərinin qarşısını alır, beyin hüceyrələrini stimullaşdırır, iş qabiliyyətini yüksəldir, immuniteti gücləndirir və sair.

Hazırda musiqidən ağrını, qorxunu, gərginliyi azaltmaq, orqanizmin tonusunu yüksəltmək, depressiyanı aradan götürmək üçün istifadə olunur. Musiqini dinləyən adamın diqqəti artır, əmək qabiliyyəti yaxşılaşır. Beyin neqativ emosiyalara enerji sərfini dayandırır, insanın ümumi ovqatı tədricən sabitləşir və o, rahatlıq tapır.

Mövzu ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserinin baş həkimi Rəşadət Nabatov ilə həmsöhbət oluruq. O deyir:

– Ruhi xəstələrin bədii yaradıcılığı diqqət mərkəzində olsa da, incəsənətin insan orqanizminə təsiri bir elm kimi XX əsrin 20-ci illərində araşdırılıb. Bu, artterapiya adlanır. “Art” incəsənət, “terapiya” müalicə deməkdir. Bu termindən ilk dəfə 1938-ci ildə istifadə edilib.

Artterapiyanın əsas məqsədi pasiyentə uyğunlaşmanın, yəni adaptasiyanın səviyyəsinin artırılmasıdır.

Musiqi terapiyası da artterapiyanın bir növüdür. O, insan orqanizminə və psixikasına musiqinin kliniki təsiridir. Musiqi terapiyası musiqi, psixologiya, təbabət və psixologiyanın vəhdətindən yaranan psixoterapevtik üsuldur. Bu üsul vasitəsilə insanda fiziki, emosional, ünsiyyət, əqil, sosial olmaqla, 5 psixi sferaya təsir edilir.

Musiqi terapiyası aktiv və passiv olmaqla, iki qrupa ayrılır. Aktiv musiqi terapiyasında pasiyentlər özləri də musiqi alətlərində ifa edir, mahnı oxuyur, rəqs edirlər. Bu zaman nitq inkişaf edir, artikulyasiya yaxşılaşır, sosial ünsiyyət formalaşır. Passiv musiqi terapiyası zamanı isə pasiyentlər, sadəcə, musiqi dinləyirlər.

Bu terapiyanın müalicə üsulu kimi yaşdan, sağlamlıq vəziyyətindən asılı olmayaraq, bütün insanlarda tətbiq olunmasına əks təsiri yoxdur. Onun əqli, fiziki qüsurlu insanlarda tətbiqi olduqca effektlidir. Xüsusilə də ahıl insanlarda beyin qan dövranı pozğunluğu, parkinson kimi xəstəliklərdə, damar mənşəli ağıl zəifliklərində musiqi terapiyasından dərman müalicəsi ilə yanaşı istifadə edilir.

Rəşadət Nabatov onu da qeyd etdi ki, hazırda Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserində də musiqi terapiyası dərman müalicəsi ilə yanaşı aparılır. Günün müəyyən saatlarında xəstələr mərkəzləşmiş qaydada sakitləşdirici musiqi dinləyirlər. Xəstələrin zövqündən asılı olaraq təyin olunan musiqi onlara daha da effektiv təsir göstərir.

Psixoloq Şahnaz Məmmədovanın musiqi terapiyası haqqında dediklərindən:

– İnsan psixologiyasına təsir göstərən amillərdən biri də musiqidir. O, insanın əhval-ruhiyyəsini yüksək dərəcəyə qaldıra da bilər, sıfırlaya da. Buna görə də günün hansı yarısında necə bir musiqiyə qulaq asmağımıza diqqət yetirmək vacib şərtdir. Günün ilk saatlarında lirik mahnılara qulaq asmaq məsləhətli deyil. O, insanın gün ərzində faydalı iş əmsalını aşağı salır. İnsan günə enerjili, nikbin göz açır. Buna görə də o, dinamik musiqilərə qulaq asmaq istəyir. İstirahət zamanı həzin, melodiyasında rahatlıq tapdığımız musiqilərə qulaq asmaq olar.

Bugünkü gənclərdə eqoizmin, aqressivliyin olmasında onların dinlədikləri musiqi janrının da payı var. Məlumdur ki, onların əksəriyyəti rep, meyxana, rok janrlarında olan nümunələrə qulaq asırlar. İnsan eyni mahnıya dəfələrlə qulaq asırsa, həmin mahnının sözlərindən bir ssenari qurub onu öz beynində canlandırır və ən acınacaqlı obrazda isə özünü təsəvvür edir. Şüuraltında yaranan təlqin nəticəsində isə həmin insan bir müddət sonra düşündüyünü gerçək həyatda da yaşayır. İnsan özünü nəyə inandırsa, o da olur. Buna görə də nə düşündüyümüzə fikir verməli, özümüzü mənfiliyə kökləməməliyik. Uşaqlıqdan ana laylası ilə böyüyən bir nəsil birdən-birə sözlərində etiraz duyulan bir mahnı eşitdiyi zaman bu, onda maraq yaradır və bu maraq həmin insanda alışqanlığa çevrilir.

Psixoloji problemləri olmayan insanların xalq mahnılarına qulaq asmağı çox yaxşıdır. Çünki xalq mahnılarımız bizi doğruluğa, düzgünlüyə, mehribanlığa, vətənpərvərliyə səsləyir. Bəzən tərbiyəvi əhəmiyyətli bir xalq mahnısına qulaq asdığımız zaman heç özümüz də fərqinə varmadan ondan nəsə öyrənirik. Qısaca, hər bir xalq mahnısı bizə mütləq nəsə öyrədir. Məsələn, götürək elə muğamlarımızı. Hansı ladda olmasından asılı olmayaraq, muğam insanda xoş xatirələr oyadır. Əgər qürbətdəyiksə, ən kədərli məqamda – “Humayun”da səslənən vətən haqqında bir muğamı dinləsək, o, bizə mütləq vətənlə bağlı xoş xatirələri xatırladacaq. Klassik musiqilər insanı ruhən də kamilləşdirir.

*Bəli, yuxarıda qeyd edilənlərdən də aydın olur ki, musiqi, sadəcə, bizim gündəlik həyatımızda istifadə etdiyimiz bir şey deyil, o eləcə də bizi psixoloji baxımdan kamilləşdirən bir vasitədir. Digər vərdişlərimiz kimi, musiqi dinləmə vərdişimizi də vaxtında düzgün istiqamətləndirməliyik ki, onun ovqatımızı yüksəldən təsirini görək.*

**Fatma BABAYEVA**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 14 mart 2017-ci ildə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın (15%) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5% həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 0,1037 hektar torpaq sahəsində yerləşən 75,95 kv.m yaşayış sahəsindən ibarət 1-(2) mərtəbəli, 5 otaqlı, 82 nömrəli fərdi yaşayış evi | Naxçıvan şəhəri, B.Abbasov küçəsi | 60 000 | 51 000 | 3 000 |
| 2. | 0,408 hektar torpaq sahəsində yerləşən 10 nömrəli, 5 mərtəbəli binanın 5-ci girişində, 4-cü mərtəbəsində 80,10 kv.m ümumi, 56,30 kv.m yaşayış sahəsindən ibarət 4 otaqlı, 47 nömrəli mənzil | Naxçıvan şəhəri, “İstiqlal” küçəsi | 60 000 | - | 3 000 |
| 3. | Naxçıvan şəhəri, Nizami küçəsində yerləşən 57 nömrəli, 5 mərtəbəli binanın 1-ci girişində, 1-ci mərtəbəsində 1 otaqlı, 1 nömrəli mənzil. | Naxçıvan şəhəri, Nizami küçəsi | 27 000 | 22 950 | 1 350 |
| 4. | Naxçıvan şəhəri, Ə.Naxçıvani məhəlləsi, döngə 2-də yerləşən 18 nömrəli fərdi yaşayış evi | Naxçıvan şəhəri, Ə.Naxçıvani məhəlləsi | 20 000 | 17 000 | 1 000 |
| 5. | 0,1562 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı, 76,0 kv.m yaşayış, 49,5 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayonu, Şahtaxtı kəndi | 13 529 | 11499,65 | 676,45 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 % məbləğində beh “Kapital Bank” ASC-nin Naxçıvan Muxtar Respublikası Baş İdarəsindəki AZ87AİİB45090249443100007500, “Azərbaycan Beynəlxalq Bank” ASC-nin Naxçıvan Muxtar Respublikası Baş İdarəsinin AZ03NABZ01350100000000005944 və “Kapital Bank” ASC-nin Kəngərli rayon filialında olan AZ37NABZ01350100000000001944 nömrəli hesabına 10 mart 2017-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ 21 NABZ 12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 14 mart 2017-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Güləş komandamız beynəlxalq turnirdə birinci yerə çıxıb



İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin Urmiya şəhərində sərbəst güləş üzrə keçirilən beynəlxalq turnirə yekun vurulub. Gürcüstan və İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətindən 9 komandanın iştirak etdiyi beynəlxalq turnirdə Naxçıvan Muxtar Respublikasının da komandası mübarizə aparıb. Ümumilikdə, 11 komandanın iştirak etdiyi yarış Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirmələrinin uğurlu nəticələri ilə yadda qalıb. Belə ki, 16 yaşdan yuxarı olan güləşçilərin mübarizəsində Naxçıvan güləş məktəbinin yetirmələri bütün rəqiblərini üstələyərək beynəlxalq turnirin baş mükafatını qazanıblar. 16 yaşadək olan komandaların mübarizəsində isə güləşçilərimiz ikinci olublar.

Sonda qalib və mükafatçı komandalarımız təşkilatçılar tərəfindən kubok və diplomlarla təltif ediliblər.

## İdmançılarımız Azərbaycan birinciliyinin qalibi olublar



***Bakı şəhərindəki Respublika Olimpiya Mərkəzində yüngül atletika üzrə 2000-2001-ci illər təvəllüdlü oğlan və qızlar arasında keçirilən Azərbaycan birinciliyinə yekun vurulub.***

13 gün davam edən birincilikdə Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının 12 nəfərdən ibarət komandası da iştirak edib. İdmançılarımızın ölkə birinciliyində uğurlu çıxışı diqqətdən yayınmayıb. Belə ki, ən yüksək nəticəni qızlar arasında 1500 metr məsafədə Telli Abbasova göstərib. O, finiş xəttini ikinci keçərək Azərbaycan birinciliyində gümüş medal qazanıb. Gülafət Müslümova isə ilk üçlükdə yer almağa müvəffəq olub. O, komandamıza bürünc medal qazandırıb.

Ümumiyyətlə, komandamız bu nəticədən əlavə olaraq komanda hesabında daha böyük uğur əldə edib. 4x200 metr estafet qaçışında qızlardan ibarət komandamız bütün rəqiblərini geridə qoyaraq ölkə birinciliyinin qalibi olub.

Qalib idmançılarımıza və komandamıza Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin diplomları təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Quliyeva Naibə Hüseyn qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 139